bir xəyal qur...

Kitabın sahibi


Oxu tarixi



Ürək ver

Antuan dö Sənt-Eqzüperi

Balaca Şahzadə



Müəllifin çəkdiyi şəkillərlə

Fransız dilindən tərcümə: Çimnaz Vəliyeva

Baş redaktor:	Amin
Redaktor:	Toğrul MUSAYEV
Korrektor:	Flora ƏLİYEVA
Yekun oxunuş:	Səadət DADAŞOVA
Dizayn və tərtibat:	İsmayıl SÜLEYMANLI
Şəkilləri yenidən işləyən:	Ramil ƏLİYEV
“Balaca Şahzadə” yazısının kalliqrafı:	Ramin HƏSƏNƏLİZADƏ

Antoine de Saint-Exupéry
LE PETIT PRINCE

Antuan dö Sənt-Eqzüperi
BALACA ŞAHZADƏ

Bakı, “Simurq” Nəşriyyatı – 2026, 144 səh. / VIII nəşr

© Antoine de Saint-Exupéry / 1943
© Parlaq İmzalar MMC / 2016
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Simurq Nəşriyyatı | 2

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Antuan dö Sənt-Eqzüperi 1900-cü il iyunun 29-da Fransanın Lion şəhərində anadan olub. O, ilk təhsilinə 1908-ci ildə "Qardaşlar məktəbi" adı ilə tanınan Müqəddəs Varfolomey dini məktəbində başlayıb, daha sonra müxtəlif tədris mərkəzlərində oxuyub. Təhsilini bitirdikdən sonra pilotluq peşəsinə yiyələnib. 1944-cü ildə düşmən ərazilərində kəşfiyyat aparmaq üçün Korsika adasındakı Borqo aeroportundan havaya qalxıb və bir daha geri qayıtmayıb.
Dünyanın 300-dən çox dil və ləhcəsinə çevrilən "Balaca Şahzadə" ilk dəfə 1943-cü ildə Nyu-Yorkda, eyni vaxtda həm fransız, həm də ingilis dilində çap olunub. Bu möhtəşəm əsər hələ də dünyanın ən çox oxunan kitabları sırasındadır.

Çimnaz Vəliyeva 1982-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəbi 1999-cu ildə bitirib. 2000-ci ildə ADU-nun Fransız dili və tərcüməsi ixtisasına qəbul olub. 2005-ci ildə elə həmin universitetin magistratura pilləsində təhsilini davam etdirib. Bir müddət şifahi tərcümə ilə məşğul olduqdan sonra 2012-ci ildən bədii tərcüməyə başlayıb. Qustav Floberin "Madam Bovari", Viktor Hüqonun "Gülən adam", Milan Kunderanın "Mənasızlığın təntənəsi", Onore dö Balzakın "Vadidəki zanbaq", Jan-Pol Didyeloranın "6:27 qatarındakı qiraətçi" əsəri də daxil olmaqla 20-dən çox kitab tərcümə edib.

Leon Vertə ithaf olunur

Bu kitabı yaşlı bir adama həsr etdiyimə görə uşaqlardan üzr istəyirəm. Bunun üçün ciddi səbəbim var: həmin adam mənim bu dünyadakı ən yaxın dostumdur. Başqa səbəbim də var: bu böyük adam hər şeyi, hətta uşaq kitablarını da başa düşə bilir. Üçüncü səbəbim isə budur: həmin adam aclıqdan və soyuqdan əziyyət çəkə-çəkə Fransada yaşayır. Onun təsəlliyə ehtiyacı var. Bütün bu səbəblər də qane etməsə, onda bu kitabı həmin adamın uşaqlığına həsr edirəm. Böyüklərin hamısı nə vaxtsa uşaq olub (amma çoxu bunu xatırlamır). Odur ki ithafımı düzəldirəm:

Leon Vertin uşaqlığına həsr olunur

I

Altı yaşım olanda balta görməmiş meşədən bəhs edən “Olmuş əhvalatlar” adlı kitabda əcaib bir şəkil görmüşdüm. Şəkildə yırtıcı heyvanı udan boa təsvir olunmuşdu. Həmin şəkli aşağıda çəkmişəm:



Kitabda belə yazılmışdı: “Boalar öz şikarlarını çeynəmədən, diri-diri udurlar. Sonra yerlərindən tərpənə bilmir və udduqlarını həzm etmək üçün altı ay yatırlar”.

Bunları oxuyandan sonra cəngəllik macəraları heç cür ağlımdan çıxmırdı, axırda rəngli karandaşlarımı götürüb ilk şəklimi çəkdim. Mənim birinci şəklim bax bu idi:



Şah əsərimi böyüklərə göstərib qorxub-qorxmadıqlarını soruşdum.

Onlarsa “şlyapa niyə qorxulu olsun ki?” dedilər.

Ancaq mənim şəklimdə şlyapa-zad yox idi. Mən fil udmuş boa çəkmişdim. Bu dəfə böyüklərə aydın olsun deyə fili boanın içində çəkdim. Böyüklərə gərək həmişə nəyisə izah eləyəsən. Bu da ikinci şəklim:



Böyüklər mənə boanın içini-çölünü çəkmək əvəzinə, gedib coğrafiya, tarix, riyaziyyat, qrammatika öyrənməyi məsləhət gördülər. Bax beləcə, altı yaşındaykən rəssamlıq arzularım yarıda qaldı. Onsuz da birinci və ikinci şəkillərimi heç kəs bəyənmədiyindən həvəsdən düşmüşdüm. Böyüklər heç vaxt heç nəyi özləri başa düşmürlər, hər dəfə hər şeyi onlara izah etmək isə uşaqları yorub əldən salır.

Beləliklə, özümə başqa yol seçdim, təyyarə sürməyi öyrəndim. Demək olar ki, dünyanın

dörd bir yanına uçmuşam. Düzünü desəm, coğrafiyanın mənə çox köməyi dəyib. Mən bircə baxışdan Arizonada, yoxsa Çində olduğumu ayırd edə bilirəm. Gecənin bir vaxtı, işdir, azıbeləsəydim, coğrafi biliklər əlimdən tutardı.

Vaxt keçdikcə bir sıra ciddi adamlarla tanış oldum. Böyüklərin arasında çox yaşadım. Onları yaxından tanıdım. Amma onlarla bağlı fikirlərim çox dəyişmədi.

İndiyə kimi birinci şəklimi üstümdə gəzdirirəm, əgər qarşıma təsadüfən ağıllı bir adam çıxsa, şəkli çıxardıb ona göstərirəm. Bir dəfə ağıllı bir adama rast gəldim, şəkli çıxardıb ona göstərdim, onun ağıllı olduğuna əmin olmaq istəyirdim. Ancaq o da eyni cavabı verdi: "Şlyapadı".

Belə olanda mən nə boalardan, nə balta görməmiş meşələrdən, nə də ulduzlardan söhbət açırdım. Məcbur qalıb onların dərk səviyyəsinə düşürdüm. Ağızdolusu bricdən, qolfdan, siyasətdən, qalstuklardan danışırdım. Və belə bir ağıllı adamla tanış olduğuna görə böyük adamın sevinci aşıb-daşırdı.

II

Beləcə, ürəkdolusu söhbət etməyə bir adam tapmadan tək-tənha yaşadım, ta ki bir gün, altı il bundan əvvəl təyyarəm Böyük Səhrada xarab olan günə qədər. Motorun bir hissəsi sıradan çıxmışdı. Yanımda nə mexanik, nə də sərnişin var idi, ona görə qollarımı çırmalayıb bu çətin işə özüm girişdim. Ölüm-qalım məsələsi idi. Çünki cəmi bir həftəlik suyum qalmışdı.

Həmin gecə ən yaxın yaşayış yerindən min kilometr aralıda, qumun üstündə yatdım. Qəza keçirib okeanın düz ortasında bir salın üstündə qalan insanı təsəvvürünüzə gətirin, mən ondan da betər idim. Bir də bunu təsəvvür edin, şəfəq sökülərkən qəfil kiminsə incə və cingiltili səsinə oyanıram:

– Zəhmət olmasa... mənə qoyun şəkli çək!

– Nə?

– Qoyun şəkli çək!


İldırım vurmuş adam kimi yerimdən sıçradım. Gözlərimi yaxşı-yaxşı ovuşdurub diqqətlə

baxdım. Qarşımda ciddi baxışlarla məni süzən qəribə, balaca bir adam dayanmışdı. Sonralar nə qədər onun şəklini çəkməyə çalışsam da, yaxşı alınmadı. Çəkdiyim ən gözəl şəkli budur. Ancaq özü şəkildəkindən də gözəldir. Məni qınamayın. Altı yaşım olanda böyüklər məni rəssamlıqdan necə soyutdularsa, həvəsdən düşdüm, əlimdən də boaları çəkməkdən savayı heç nə gəlmir.

Gözlərimi bərəldib qeybdən gəlmiş bu adama baxırdım. Xatırladım ki, ən yaxın yaşayış yerindən düz min kilometr uzaqdaydım. Ancaq bir şey də deyim, bu adam nə yolunu itirənə, nə də yorğunluqdan, aclıqdan, susuzluqdan, qorxudan üzülənə oxşayırdı. Görünüşünə baxanda da heç bu uşağın ən yaxın yaşayış yerindən düz min kilometr uzaqda yerləşən səhranın ortasında azıb qaldığını demək olmazdı. Yavaş-yavaş özümə gəlib, nəhayət, soruşdum:

– Axı sənin burda nə işin var?

O isə yavaşdan, amma ciddi-ciddi təkrar etdi:



Çəkdiyim ən gözəl şəkli budur.

– Nə olar... mənə qoyun şəkli çək...

Müəmmalı vəziyyətə düşəndə məcbursan deyilənlərə əməl edəsən. Ən yaxın yaşayış məntəqəsindən düz min kilometr uzaqda, üstəlik ölümlə əlbəyaxa olduğum bir vaxtda şəkil çəkmək mənə nə qədər gülünc, bəlkə də, dəlilik kimi görünsə də, cibimdən vərəqlə peromu çıxartdım. Amma birdən yadıma düşdü ki, ömrüm-günüm coğrafiya, tarix, hesab və qrammatika öyrənməklə keçib, oğlana (bir az da dilxor halda) şəkil çəkməyi bacarmadığımı dedim. O isə:

– Eybi yoxdu, – dedi. – Qoyun şəkli çək.

Heç vaxt qoyun şəkli çəkməmişdim, ona görə mən də əlimdən gələn yeganə şeyi – əvvəlki iki şəkildən birini çəkdim. Yəni boanın xaricdən görünüşünü. Balaca oğlanın cavabını eşidəndə isə gözlərim bərələ qaldı:

– Yox! Yox! Fili udmuş boanın şəklini istəmirəm. İlan təhlükəlidi, fil isə çox böyükdü. Mənim yaşadığım yer bapbalacadı. Mənə qoyun lazımdı. Qoyun şəkli çək.

Mən də çəkdim.



Oğlan diqqətlə şəklə baxdı, sonra:

– Yox! – dedi. – Bu qoyun çox xəstədi. Ayrısını çək.

Ayrısını çəkdim:



Dostum şirin-şirin və nəzakətlə gülümsəyib:

– Özün də görürsən ki, bu, qoyun yox, qoçdu, – dedi. – Buynuzları var...


Onda mən başqasını çəkdim.



Əvvəlkilər kimi, bunu da bəyənmədi:

– Çox qocadı. Mənə elə qoyun lazımdı ki, çox yaşasın.

Bu yerdə səbir kasam doldu, xarab motor da bir tərəfdən, ona görə də aşağıdakı şəkli necə gəldi cızma-qara edib dedim:



– Bax bu, yeşikdi. İstədiyin qoyun da yeşiyin içindədi.

Gənc mühakimimin üzünün birdən-birə işıqlandığını görüb təəccübləndim.

– Mən də elə beləsini istəyirdim! Necə bilirsən, bu qoyun çox ot yeyər?

– Niyə soruşursan?

– Çünki mənim yaşadığım yer bapbalacadı...

– Ona bəs edəcək. Sənə verdiyim qoyun da bapbalacadı.

O, şəklin üstünə əyildi:

– Ay nə balacadı... bax yatmağa getdi.

Balaca Şahzadə ilə tanışlığım bax belə oldu.